# İdmançının Məkan məlumatı

Bir baxışda



AMADA
STAY CLEAN

WORLD ANTI-DOPING AGENCY
play true



İdmançılar idmanın təmsilçiləri kimi nümunə olmalıdırlar. Onlar öz idmanlarının saflığının qorunmasına görə önəmli məsuliyyət daşıyırlar. Bu məsuliyyətin bir hissəsi sizin məkan məlumatınızı təmin etməyinizdir. Bu antidopinq təşkilatlarına bütün idmançıların eyni qaydalara riayət etməklə, düzgün yarışmasını daha yaxşı təmin etməyə imkan verir.

# Məkan məlumatınızın

## yenilənməsinə dair bir az qısa məlumat



• Əsaslı səbəb olmadan göstərdiyiniz yerdə olmamağınızın nəticələri ola bilər. gər siz test keçirmək üçün tapıla bilinmirsinizsə, sizə bunu izah etməyə imkan yaradılacaq.

• Siz məkan məlumatınızın təqdim edilməsi üçün agentinizi yaxud digər nümayəndənizi seçə bilərsiniz, lakin yadda saxlayın ki, həmin məlumat üçün yenə də siz məsuliyyət daşıyırsınız.

• gər siz komanda üzvüsünüzsə, sizin məkan məlumatınız məşqçi yaxud komanda rəsmisi tərəfindən bütün komandanız üçün kollektiv şəkildə təmin edilə bilər.

## Niyə Məkan məlumatı?

Məkanınız barədə məlumatın təmin edilməsi saf idman hüququnuzun qorunması məqsədini daşıyır. Məkan məlumatı Antidopinq Təşkilatına (ADT) idmançıları əvvəlcədən xəbərdarlıq vermədən tapmağa imkan verir.

Bu isə özlərinə qeyri-dürüst yollarla üstünlük qazandırmaq istəyən idmançıların testdən keçirilməsi üçün böyük əhəmiyyətə malikdir.

İdmançıların harada olmalarının bilinməsi effektiv antidopinq proqramı üçün həlledici məsələdir..



## Kim daxil edilmişdir?

Qeydiyyata alınmış Test Qrupuna (QTQ) daxil edilmiş çox az sayda idmançılar öz cari məkanları barədə dəqiq məlumat təmin etməlidirlər.

Sizin məkan məlumatını təmin etməli olub-olmadığınız haqqında qərarın qəbul edilməsinə görə məsuliyyət Beynəlxalq Federasiyalar və Milli Antidopinq Təşkilatlarının üzərinə düşür.

## Mən nə təmin etməliyəm?

Əgər sizin Antidopinq Təşkilatınız sizdən məkan məlumatınızın təmin edilməsini istəyirsə, sizdən aşağıdakı kimi məlumatı təmin etmək tələb oluna bilər:

• ev ünvanı
• məşq məlumatı və yerləri
• yarışma cədvəlləri
• iş yaxud məktəb kimi müntəzəm fərdi fəaliyyətlər
• Qeydiyyata alınmış Test Qrupuna (QTQ) daxil edilmiş az saylı idmançılar üçün gün ərzində sizin test keçirilməsində iştirak edə biləcəyiniz bir 60 dəqiqəlik zaman pəncərəsi təmin edilməlidir.

Unutmayın ki, bütün idmançılar yenə də istənilən yerdə və istənilən zaman testdən keçirilə bilər. Lakin, Qeydiyyata alınmış Test Qrupuna (QTQ) daxil edilmiş idmançılar bəyan etdikləri 60 dəqiqəlik pəncərə zamanı hazır olmadıqları halda test buraxılmış kimi qeydə alına bilər.

ADAMS ilə məkan məlumatınızın yenilənməsi asandır

ADAMS



ADAMS ilə məkan məlumatınızın yenilənməsi asandır ÜADA-nın Antidopinq İnzibatçılıq və İdarəetmə Sistemi (ADAMS) idmançılara istənilən yerdə və istənilən zaman məkan məlumatlarını yeniləmək üçün şərait yaradan onlayn alətdir. Məlumat SMS ilə də yenilənə bilər. ADAMS ingilis, fransız, ispan, ərəb, holland, fin, alman, italyan, yapon və rus dillərində istifadə oluna bilər.

ADAMS pulsuzdur, istifadədə asandır və onun çoxsəviyyəli istifadəyə nəzarət sistemi məlumatınızın məxfiliyini və təhlükəsizliyini təmin edir. Öz antidopinq təşkilatınızdan maraqlanın, onlar ADAMS-dan istifadə edirlər yoxsa gələcəkdə istifadə etməyi planlaşdırırlar.

əlavə məlumat wada-ama.org-da

# Unutmayın!

## İdmançıların məkan məlumatı idmanınızın və rəqiblərinizin bərabər şəraitdə yarışmalarının təminatı üçün həlledici addımdır.

- SİZ, və yalnız siz, məkan məlumatlarınız üçün məsuliyyət daşıyırsınız.

- SİZ məkan məlumatlarınızı düzgün təqdim etmədiklərinə yaxud yeniləməyi unutduqlarına görə nümayəndənizi yaxud agentinizi GÜNAHLANDIRA BİLMZSİNİZ.

- Əgər siz Qeydiyyata alınmış Test Qrupuna (QTQ) daxil edilmisinizsə, siz HR ÜÇ Aydan bir öz məkan məlumatlarınızı təqdim etməlisiniz ki, test keçirmək üçün tapıla biləsiniz.

- Əgər siz Qeydiyyata alınmış Test Qrupuna (QTQ) daxil edilmisinizsə, qeyri-düzgün məkan məlumatının təmin edilməsinin nəticələri ola bilməsini UNUTMAYIN. Beynəlxalq Federasiyanız yaxud Milli Antidopinq Təşkilatınız sizə öz tələblərinə dair daha təfərrüatlı məlumat verəcək.

- MƏKAN MLUMATI sizin saf idman üçün hüquqlarınızın dəstəklənməsinin həlledici elementidir.



Bu məlumat və Ümumdünya Antidopinq Məcəlləsi arasında hər hansı fərq halında, Məcəllə üstünlük təşkil edir. Bu məlumat istənilən zaman dəyişdirilə bilər.   n yeni antidopinq qaydalarını əldə etmək üçün Beynəlxalq Federasiyanız, Milli Antidopinq Təşkilatınız yaxud Milli Federasiyanıza müraciət edin.

Yanvar 2015


WADA

wada-ama.org • info@wada-ama.org
facebook.com/wada.ama • twitter.com/wada_ama

Qərargah 800 Place Victoria, Suite 1700, P.O. Box 120, Montreal, QC, H4Z 1B7, Canada • Tel.: +1.514.904.9232 • Fax: +1.514.904.8650

AMADA
STAY CLEAN

amada.az • office@amada.az
facebook.com/amada.az • instagram.com/amada_aze

Qərargah 8, Izmir str., Hyatt Tower 3, AZ 1065, Baku, Azerbaijan
Azerbaijan • Tel.: + 994.12.597.18.39 • Fax: + 994.12.597.18.45


əlavə məlumat wada-ama.org-da